BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Humanitar elmlər seriyası 2013

UOT 338, 425

# MONQOL FENOMENİ, YOXSA TARİXİ REALLIQLAR

**R.İ.MƏHƏRRƏMOV**
***Gəncə Dövlət Universiteti***
***rabiteci_22@mail.ru***

*Məqalə monqol-türk tarixinin tarixşünaslığında hələ də tam həllini tapmayan maraqlı bir problemə həsr edilmişdir.*

*Müəllif dünyanın iqtisadi və insan potensialına malik böyük bir hissəsinin, müqayisədə monqolların az bir qüvvə ilə fəth etməsinin səbəblərini aydınlaşdıraraq, bunun təkcə monqol müəmması (fenomeni) ilə deyil, tarixi reallıqla bağlılığını faktlarla və məntiqlə arqumentləşdirilmiş şəkildə sübut edir.*

**Açar sözlər:** monqol, Çingiz xan, müharibə, feodal, köçəri, fenomen

"Monqol məsələsinin" öyrənilməsinə başlanandan artıq 300 il keçsə də, monqolların kiçik bir qüvvə ilə az qala dünyanın yarısını fəth etməsinin səbəbləri elmdə həllini qismən tapsa da, bu məsələ hələlik tam həll olunmamış qalır.

Tarixi ədəbiyyatlarda belə bir fikir vurğulanır ki, necə oldu ki, yarım milyondan bir qədər artıq (700 minə yaxın) sayı olan monqollar, müxtəlif tayfalara bölündükləri halda, qeyri-mütəşəkkil, hərbi hazırlıq keçməmiş, təchizatı olmayan (dəmir çatışmırdı) bir toplum özündən qat-qat güclü olan xalqlardan ibarət Çini Hindiçinlə birlikdə, Tibet, İran, Orta Asiya (Qərbi Türküstan), Qazaxıstan, Ukrayna kimi dövlətləri ələ keçirmiş, Aralıq dənizinə çıxmış, Polşa və Macarstandan keçib, Adriatik dənizinə çata bilmişdir. Belə hesab edilir ki, bu hansısa bir monqol möcüzəsinin nəticəsi, maldarların əkinçilər üzərində qələbəsi idi [1, 123].

Məlum olduğu kimi, Avropa xalqları çoxdan Avroasiya köçəriləri ilə toqquşsalar da, onlar haqqında az bilirdilər və onlarla maraqlanmırdılar. Yeri gəlmişkən, köçərilik, bəzi tarixçilərin fikirləşdikləri kimi hər hansı bir etnosun xarakterik xüsusiyyəti olmayıb, onların yaşadıqları coğrafi-təbii şəraitin təzahürü idi.

**Haşiyə**: alimlər sübut etmişdilər ki, eradan əvvəl II minillikdə Böyük Çin səddi qurşağında yerli çöl etnosları hələ oturaq həyat sürürdülər və onlardan bə-

zilәri әkinçiliklә vә ev heyvandarlığı ilә mәşğul idilәr. Lakin e.ә. I minilliyin ortalarında regionda baş verәn bәrk quraqlıq torpağın mәhsuldar münbit qatını erroziyaya (defilyasiyaya) uğradaraq әkinçilik üçün yararsız hala salmışdır. Maldarlığa keçid labüdlәşmiş, hәm dә burada da çәtinliklәr meydana gәlmişdir. Çünki quraqlıq şәraitindә otlaqların azlığı mal-qaranı yeni otlaqlara köçürmәyә mәcbur etmişdir. Belәcә, bu çöllәrdә tәsәrrüfat sistemini şәraitә uyğunlaşdırmaq vasitәsi kimi, köçәri maldarlığın meydana gәlmәsinә sәbәb olmuşdur [3, 64].

Köçәri maldarların tipik tәmsilçilәri olan monqollar XIII әsrdә dünya tarixi arenasına yenicә qәdәm qoysalar da, o dövrki mürәkkәb tarixi proseslәr burulğanında qurbanlıqdan qaliblәrә çevrildilәr. Burada belә bir mәsәlәni qeyd etmәk zәrurәti yaranır ki, «tatar-monqol» termini heç dә tarixin dәrinliklәrindәn doğan anlayış olmayıb, Rus imperiyasının digәr xalqlara qısqanclıq, onları aşağılamaq vә şovinizm siyasәtinin formalaşdığı dövrdә tәşәkkül tapmışdır. Gimnaziyalarda, mәktәblәrdә uşaqları onlarla qorxudur, Rusiyanın rahatlığını pozan, bu «yırtıcı qaniçәnlәr»in rusun bәdbәxtliklәrinin vә әziyyәtlәrinin baiskarı olduğu qәlәmә verilirdi.

Bu mәnasız cәfәngiyatı ilk dәfә gimnaziya müәllimi R.A.Naumov 1823-cü ildә uydurmuşdur. O hәmin dövrdә yazdığı kitabçasında belә bir mühakimә yürüdür: «Bütün tarixçilәr öz aralarında razılaşmışlar ki, bu qәddar işğalçılar tatar deyil, monqol idilәr». Naumovda heyrәt doğuran bir ideya hasil oldu vә onları tatar-monqollar adlandırdı. Onun bu «mәntiqi-elmi kәşfi» Peterburqun xoşuna gәldi vә türklәrә yapışdırılan etiket 1823-cü ildәn elmi leskikona daxil edildi [9, 226].

Aşağıdakı faktlara diqqәt yetirәk. Bu dövrdә Şimali Çindә 60 mln. әhali yaşayırdı vә hakimiyyәt döyüşkәn vә cәsur mancur xalqının әlindә idi. Çinin şimali-qәrbindә güclü, zәngin vә çoxsaylı әhalisi olan Tanqut vә Uyquriya yerlәşirdi. Xuanxe vә Yantsızı çayları arası kiçik Xuauşuy çayından cәnuba, Cәnubi Çinә 30 mln. әhalinin daxil olduğu Sun sulalәsi başçılıq edirdi. Demәli, monqollara düşmәn olan Çin әrazisindә 100 mln-a yaxın әhali yaşayırdı [1, 323].

Orta Asiyada (Qәrbi Türküstanda) vә Şәrqi İranda Xarәzm sultanı hökmranlıq edirdi. Onun hakimiyyәti altında 20 milyon müsәlman әhali yaşayırdı. Sultan ordusu döyüşkәn çölçülәrdәn vә dağlılardan ibarәt idi. Bu ölkәdә onlara müasir sivilizasiyanın yüksәkliyindә duran iki әn böyük şәhәr yerlәşirdi. Söhbәt öz zәnginliyi vә cah-cәlalına görә Konstantinopol, Kardova vә Cәnubi Çindәki Xançjoudan qәtiyyәn geri qalmayan Sәmәrqәnd vә Buxaradan gedir. O zaman bu şәhәrlәr dünyanın birinci beşliyә daxil olan şәhәrlәri idi. Bu şәhәrlәrdәn hәr birinin özünü müdafiә edә bilәn kifayәt qәdәr (60 min nәfәr) ordusu var idi. Paris, Venesiya kimi şәhәrlәr, haradasa üçüncü beşliyә daxil idilәr [1, 124].

Volqa ilә Karpatlar arasındakı Şәrqi Avropada 8 mln. әhali yaşayırdı. Qafqazın vә Suriyanın hәrәsindә (bir qәdәr şübhәli dә olsa) 5 mln. nәfәr әhali var idi. Yarım milyondan bir qәdәr çox әhalisi olan monqollar eyni vaxtda üç

istiqamətdə, dünyanın üç tərəfində vuruşmağa başladılar, özü də maraqlıdır ki, təkcə döyüşmədilər, həm də qələbə çaldılar [3, 66]

Doğrudanmı Monqolustanı əhatə edən xalqlar bu qədər qorxaq, gücsüz idilər ki, monqollar onları əzdi və əsarət altına aldı. Bu xalqlar yəni bu qədər fərqində deyildilər ki, monqolların bu işğalları onların məhv edilməsindən və istiqlaliyyətinin yox edilməsindən keçir? Bu heç də belə deyildir, yəqin ki, burada nə isə, hansısa bir faktor (amil) unudulmuşdur. Axı, XIII əsrdə nə tibetlilər, nə qıpçaqlar, elə rusların özü də və digər əsarətə məruz qalan xalqlar heç də qorxaq deyildilər. Görünür səbəb açıq hiss olunmayan, mahiyyəti aydınlaşdırılmalı olan, görünməyən bir qatda gizlənir. Məhz ona görədir ki, XIII əsrin ortaları özü sirli kriminal romanı xatırladır.

Lakin dövrün bəzi reallıqları və Çingiz xanın əməli tədbirləri bu möcüzəni tam olmasa da ağlabatan gerçəkliklərə bir qədər yaxınlaşdırır və ona mümkünlük payı verir.

Gəlin, tarixi reallıqlara nəzər salaq, onda görərik ki, bu monqol fenomeninin, onun möcüzəni xatırladan qələbələrinin səbəbləri təkcə Çingiz xanın şəxsi keyfiyyətləri, onun həyata keçirdiyi əməli tədbirlərin nəticəsi deyildi. Bu məsələləri bir qədər incələsək məlum olur ki, əvvəla, ram edilən hər bir ölkənin daxili problemləri, həmin ölkələrdə vahid siyasi mərkəzdən idarə olunan dövlət strukturlarının olmaması, bu zaman ayrı-ayrı xırda dövlətlərə parçalanan, yəni feodal pərakəndəliyi keçirən bu ərazilərdə ümumi düşmənə qarşı yekdil müqavimət hərəkatı olmamışdır. Məsələn, bu zaman Çində sülalə müharibələri gedirdi, Xarəzmşahlar dövlətində şah Məhəmmədlə ölkədə güclü nüfuza malik olan anası Türkan Xatunla dərin ziddiyyətlər və ölkədəki hərbi strukturlarla şah arasında fikir ayrılıqları mövcud idi. Heç də hərbi hissələrin hamısı şah Məhəmmədə tabe olmaq istəmirdi. Rusiya knyazlıqlarına gəldikdə, monqollarin yürüşü ərəfəsində Kiyev Rusu 14 udel knyazlığına parçalanmışdı və bu knyazlıqlar arasında düşmənçilik münasibətləri o qədər dərin idi ki, hətta ionqollar hücum edən zaman ilk hücuma məruz qalan Ryazan knyazlığının kömək haqqında digər rus knyazlıqlarına müraciəti belə cavabsız qalmışdı.

İkincisi, o zamankı monqollar döyüşkən köçərilər idi. Belə bir fikir də mövcud idi: onların silahları iti, atları sürətli idi. Monqolların özlərindən iqtisadi cəhətdən qat-qat güclü olan düşmənlərinə qalib gəlməsini bəzi tarixçilər, monqolların həddindən ziyadə qəddarlıqları ilə izah etməyə çalışırlar. Lakin əksər tarixçilər qeyd edirlər ki, XII-XIII əsrlərdə sülhsevərlik heç yerdə, elə Avropada da ləyaqət hesab olunmurdu və köçəri monqollar qəddarlıqda tamamilə öz zəmanəsinin səviyyəsində idilər və ədalət duyğularından heç də məhrum deyildilər. Məsələn, 1240-cı ildə onlar Kiyevi işğal edərkən şəhərin qızıl darvazaları önündə dayanıb, Sofiya məbədinin və bütövlükdə Kiyev şəhərinin bənzərsiz gözəlliyinə valeh olub, şəhəri döyüşsüz təslim etməyi tələb etmişdilər. Hunlar, avarlar, çjurçjanlar, xarəzmlilər, qıpçaqlar, səlibçilər və digərləri zərrə qədər də xeyirxah deyildilər. Monqolların cəlb edildiyi müharibə, Çingiz xanın şəxsi ağılsızlığının deyil, feodal

dövlətlərinin rəqabəti və fəal etnosların toqquşmaları nəticəsində meydana gələn sosial-iqtisadi ziddiyyətlərin məntiqi nəticəsi idi.

Üçüncüsü, Çingiz xan qanunlar küliyyatı - "Yasa"nın köməyi ilə dövlətin idarə edilməsi işini möhkəmləndirdi."Yasa"da müvafiq olaraq Çingiz xan aratlara bir onluqdan digər onluğa, bir yüzlükdən başqa yüzlüyə özbaşına getməyi qadağan etmişdi. Məhkəmə işlərinə baxmaq və "Yasa"nın qanunlarına uyğun olaraq hökm çıxarmaq üçün dövlət hakimi (carquçi) vəzifəsi təsis edildi. Çağdaş tariximizdə yüksək inkişaf etmiş ölkələrin hələ də həll edilməmiş problemi kimi, həlli örnək ola biləcək oğurluğun və yalanın (aldatmanın) kökü kəsildi. On min nəfəri özündə birləşdirən şəxsi qvardiyasını yaratdı. Qvardiyaçı-keşikçilər nizam-intizamın pozulmasına görə çox ağır cəzaya məhkum edilirdilər. Keşik təkcə Çingiz xanın şəxsi mühafizəsi deyildi, o həm də sıravi aratlar-maldarlar və ovçular üzərində çöl (səhra) aristokratiyası hakimiyyətinin saxlanmasını təmin edən əsas qüvvə idi. Sərkərdələr və dövlətin görkəmli mənsəb sahibləri məhz qvardiyadan seçilirdi [6, 53].

Dördüncüsü, Çingiz xan qohumlarını və silahdaşlarını uyğur əlifbası əsasında savadlanmağa məcbur edirdi. Məğlub xalqların görkəmli alimləri və mülki-inzibati idarəçilik təcrübəsi olan məmurları monqol xanlarının müşavirləri idilər. Məsələn, Çingiz xan Tayan xanı məğlub etdikdən sonra onun yaxın məsləhətçisi Tatatunqanı özünə xidmətə götürdü və uşaqlarına uyğur savadını öyrətməyi tapşırdı. Məşhur kidan alimi Yelyuy-Çutsay əvvəlcə Çingiz xan, sonra isə Ugedey xanın xidmətində olmuşdur. Tarixi ədəbiyyatlarda - "İmperiyanı biz at üstündə oturaraq qursaq da, onu at üstündə oturub idarə etmək mümkün deyildir"- fikrinin Yelyuy-Çutsaya məxsus olduğu qeyd edilir. Monqol xanları alim insanları qiymətləndirirdilər və onlardan dövlət aparatının idarə edilməsində istifadə edirdilər [6, 53].

Beşincisi, təbii-tarixi prosesin obyektiv qanunauyğunluğu kimi o zamankı monqolların passionar gərilməsi, yəni etnosun ruh yüksəkliyinin artması onların gücünü qarşılarında duran vəzifələrin həll edilməsi səviyyəsinə qaldırdı.

Nəhayət, Çnngiz xanın bütün fütuhatları onun yarımvəhşi tayfanın başçısı, qüdrətli döyüşçü və islahatçı olduğu üçün deyil, böyük Asiya qitəsində, gələcək «maarifçi» avropalıların vəhşi heyvan dərilərində sərkərdan dolaşdıqları və bir-birlərini daş baltalarla qovduqları bir zamanda mövcud olan minillik bir mədəniyyətin varisi olduğu üçün mümkün olmuşdu [10, 9].

Çingiz xanın fəaliyyəti o vaxta qədər müsbət və mütərəqqi idi ki, obyektiv tarixi proses monqol xalqının birləşdirilməsi və feodal dövlətinin formalaşmasına yönəlmişdi. O öz hakimiyyətinin ilk dövründə, təxminən XIII əsrin ikinci onilliyinin başlanğıcına qədər məhz bu istiqamətdə hərəkət etmişdir. Lakin sonradan Çingiz xan və onun ətrafı gənc dövlətin enerjisini işğalçılıq müharibələrinin aparılmasına sərf etdi, nəticədə bu müharibələr ram edilmiş ölkələrin xalqlarına ölçüyəgəlməz əzablar verdi və Monqolustanın özünə fəlakət gətirdi...

Çingiz xan və onun silahdaşlarının istilaları monqolların xeyli hissəsini ölkə hüdudlarından uzaqlaşdırdı və onlar Monqolustandan uzaqlarda ram edilmiş xalqlarla sıx əlaqə yaratdılar. Çində, İranda, Orta Asiyada, rus knyazlıqlarında, Qafqazda əhali feodal cəmiyyətinin inkişaf etmiş mədəniyyət şəraitində yaşayırdılar. Nəticədə monqollarda F. Engelsin yazdıqları baş verdi: "Hər dəfə, işğalçı daha zəif mədəniyyətə malik xalq olanda, nəticədə aydın məsələdir ki, iqtisadi inkişafın gedişi pozulur və məhsuldar qüvvələr kütləvi məhv olmağa düçar olur. Lakin uzun müddət işğal zamanı daha az mədəni istilaçı çox halda əsarət altına alınmış ölkənin daha yüksək "təsərrüfat vəziyyətinə uyğunlaşmağa məcbur olur, o (işğalçı) istila edilmiş xalq tərəfindən assimilyasiya edilir və böyük bir hissəsi onun dilini mənimsəməyə məcbur olur".

Çingiz xanın işğalçılıq yürüşləri Monqolustanın özü üçün faciəyə çevrildi və onun inkişafı bir neçə əsr ləngidi. Ölkənin maddi və mənəvi qüvvələri fasiləsiz hərbi yürüşlərə cəlb edildi. Monqolustan əhalisinin xeyli hissəsini itirdi, monqolların böyük bir qismi müxtəlif ölkələrə səpələndi və digər xalqların içərisində əridi. Özgə ölkələrdən əldə edilən böyük var-dövlət sadə xalqı deyil, əsasən çingizidləri və hərbi monqol feodallarının hərbi-komanda dairələrini varlandırdı. Bu sərvətdən Monqolustana yalnız kiçik bir hissə daxil olurdu, bu isə ölkənin məhsuldar qüvvələrini canlandırmadı və canlandıra da bilməzdi. Çingiz xan və onun varislərinin istilaları aratlara (maldarlara) heç bir iqtisadi mənfəət gətirmədi. Monqolustan geridə qalmış heyvandarlıq ölkəsi olaraq qaldı.

Belə yerdə deyirlər, kiminin əvvəli, kiminin axırı.

**ƏDƏBİYYAT**


1. Гумилев Л.Н. Ритмы Евразии. М.: Прогресс, фирма «ПрогрессПангея», «Экопрос». 1993, 570 с.
2. Гумилев Л.Н. Поиски вымышленного царства. М.: Айрис-Пресс, 2009, 1970, 432 с.
3. Гумилев Л.Н. Люди и природа Великой степи // Вопросы истории, 1973, №11.
4. Гумилев Л.Н. Хунну. М.: Восточная литература, 1960, 292 с.
5. Qumilyov L.N. Qədim türklər. Bakı: Elm, 1993.
6. Капица М.С. Ещё раз о роли Чингизхана в истории // Вопросы истории. Москва, 1988, №7.
7. Мункуев Н.П. Заметки о древних монголах. В.кн. Татары-монголы в Азии и Европе. М.: Наука, 1977, с. 365-366.
8. История стран зарубежной Азии в средние века. М.: Наука, 1970, 580 с.
9. Мурад Аджи. Европа. Турки. Великая степь. М.: Мысль, 1993, 331 с.
10. Александр Бушков. Чингизхан. Неизвестная Азия. М: ЗАО «Олма медиа Грунн», 2007, 544 с.

## МОНГОЛЬСКИЙ ФЕНОМЕН ИЛИ ИСТОРИЧЕСКАЯ РЕАЛЬНОСТЬ

**Р.И.МАГЕРРАМОВ**

**РЕЗЮМЕ**

Статья посвящена одной из интересных и актуальных проблем, недостаточно исследованных в развитии истории монголо-тюркским историческим событиям.

Автор подробно анализирует причины значительных завоеваний монголами с небольшой численностью армии по сравнению с мировым экономическим потенциалом. Внося ясность в развитие исторических событий, они логически аргументируют их связь не только монгольским феноменом, но исторической реальностью.

**Ключевые слова:** монгол, Чингиз хан, война, феодал, кочевник, феномен

## MONGOLIAN PHENOMENON OR HISTORIC REALITIES

**R.I.MAHARRAMOV**

**SUMMARY**

The article is devoted to one of the interesting and actual problems which has not found its absolute solution in Mongolian- Turkish historical studies .

The author thoroughly analyses the causes of Mongolian conquest of the greater part of the world which has economies and men potential with minority forces and proves with forcible and logical arguments that it was not connected with Mongolian phenomenon but historical realities.

**Key words:** Mongol, Chingiz khan, war, pheodal, mignatory, phenomenon